70 il sonra Bakını fitnə-fəsad mərkəzinə çevirmək planı baş tutmadı

***1990**-cı ilin 20 Yanvar faciəsinə bir neçə baxış bucağından yanaşmaq mümkündür. Təbii ki, bu qanlı hadisə ötən 35 il ərzində siyasi, ideoloji və hüquqi aspektlərdən dərindən təhlil edilmişdir. Lakin müasir siyasi proseslər kontekstində, xüsusilə regionda baş verən son hadisələr fonunda 20 Yanvar faciəsinin mahiyyətini daha dərindən anlamaq üçün yeni imkanlar yaranmışdır.*

Cənubi Qafqaz regionunda son 150 ilə yaxın müddətdə ermənilərin ərazi iddiaları ilə müşayiət olunan təxribatları və qanlı hadisələri nəzərə aldıqda, 20 Yanvar faciəsi də zəncirvari proseslərin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Azərbaycan xalqına qarşı yönəlmiş bu təcavüzkar siyasətin kökündə erməni amili dayanır və bu, yalnız Sovet dövrü ilə məhdudlaşmır. Hələ Rusiya imperiyası dönəmində başlanan, sovet dövründə davam edən, daha sonra SSRİ-nin süqutundan sonra yenidən canlanan ərazi iddiaları və qanlı hadisələr silsiləsi Azərbaycan xalqının tarixinə ağır faciələrlə həkk olunmuşdur.

Tarixi sənədlər dönə-dönə sübut edir ki, bu qətliam və zorakılıq aktları təkcə mərkəzi hakimiyyətin qərarları deyil, eyni zamanda erməni amilinin daha qəddar, daha amansız formada bu proseslərdə aparıcı rol oynaması ilə izah olunmalıdır. Bu zorakılıq, qanlı faciə təkcə Azərbaycan xalqının milli mübarizəsinə qarşı deyil, bütövlükdə regionda imperialist siyasətlərin və etnik qarşıdurmaların ən bariz nümunələrindən biri kimi qiymətləndirilməlidir.

20 Yanvar faciəsi azadlıq və milli maraqlar uğrunda mübarizənin simvoluna çevrilməklə yanaşı, Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması üçün mühüm tarixi mərhələ olmuşdur. Bu hadisə həm keçmişin qanlı səhifəsi, həm də milli yaddaşın bir parçasıdır.

1980-ci illərin ortalarından baş verən proseslərə nəzər yetirdikdə, eyni ssenarinin yeni beynəlxalq hadisələr müstəvisində təkrarlandığını görürük. Bunun əsasında ermənilərin ərazi iddiaları və bu iddiaları təmin etmək üçün həyata keçirdikləri metodlar dayanır. Hər fürsətdən öz maraqları üçün istifadə etməyə çalışan ermənilər 1980-ci illərin ortalarında SSRİ hakimiyyətində baş verən dəyişiklikdən sonra dərhal növbəti təşkilatlanma prosesinə başladılar. Hədəf Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsini ələ keçirmək idi. Bu proses, ilk növbədə, Ermənistan SSR ərazisinin azərbaycanlılardan tamamilə təmizlənməsi ilə başladı. Bu, qətliamlar, talan, soyğunçuluq və amansızlıqla həyata keçirilən anti-insani bir akt idi. Nəticədə Azərbaycan təkcə əzəli ərazilərini, yəni İrəvan torpaqlarını itirmədi, həm də soydaşlarımız həmin torpaqlardan qovuldular. Azərbaycanın bu gün qonşu dövlətlərin hakimiyyəti altında qalan tarixi ərazilərində azərbaycanlıların izləri qalmaqdadır. Qərbi Azərbaycan adlandırdığımız ərazilərdə isə erməni təcavüzkarları yerli əhalinin izini tamamilə silməyə çalışdılar. Onlar tarixi, dini və arxeoloji abidələri belə məhv etməklə bu məqsədlərinə nail olublar. Təbii ki, nə qədər cəhd olunsa da, Azərbaycanın maddi mədəniyyət izlərini tamamilə məhv etmək mümkün olmayıb. Azərbaycan xalqının əzəli yurdlarının tarixi sənədlərdə, xəritələrdə və toponimlərdə əksini tapan tarixi yaddaşı silinməzdir. 1980-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi ilə bağlı qərarlar qəbul edildikdə, Azərbaycan xalqı buna qarşı kəskin etirazını bildirdi və mərkəzi hakimiyyət qarşısında açıq tələblər qoydu.

Azərbaycan tarixinə bu proses "Meydan hərəkatı" kimi daxil oldu. 1988-ci ildən 1990-cı ilin yanvarına qədər Azərbaycan Milli Demokratik Hərəkatını əsas şüarları mövcud sovet qanunvericiliyi çərçivəsində xalqın milli maraqlarını qorumağa yönəlmişdi. Lakin mərkəzi hakimiyyət bu tələbləri ciddiyə almadı. Əksinə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində xüsusi idarəetmə rejiminin tətbiqi və Azərbaycan ərazilərindən azərbaycanlıların qovulması kimi haqsız tədbirlər həyata keçirildi. Bütün bu ədalətsizliklər xalqın narazılığını artırdı və etirazların miqyasını genişləndirdi. 1989-cu ilin dekabrında Ermənistan SSR Ali Soveti tərəfindən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi qərarı isə xalqın səbir kasasını daşıran son damla oldu. Bu səbəbdən Azərbaycan milli hərəkatını məhv etmək və xalqı itaətə gətirmək məqsədilə mərkəzi hakimiyyət zorakılıq yolunu seçdi. Müttəfiq respublikanın ərazisinə xəbərdarlıq edilmədən ordu yeridildi və 1990-cı ilin 20 yanvarında dövlət öz vətəndaşını qanına qəltan etdi. Bu, Azərbaycan xalqı üçün ilk faciə deyildi. Bənzər hadisələr çar Rusiyası dönəmində, bolşeviklərin hakimiyyətə gəlişindən sonra da baş vermişdi.

1918-ci ilin yazında Sovet Rusiyasının Cənubi Qafqazda yerli icra hakimiyyətini təmsil edən Bakı bolşevikləri Şaumyanın rəhbərliyi ilə daşnaklarla birləşərək dinc müsəlman əhalini kütləvi qırğına məruz qoymuşdu. Nəticədə Azərbaycan xalqının bu ideologiyaya və onu təmsil edən siyasi qüvvələrə münasibəti kəskin şəkildə pisləşmişdi.

1920-ci ilin aprelində Sovet Rusiyasının XI ordusunun hərbi müdaxiləsi ilə Azərbaycan Xalq Cümhuriyyəti devrilmişdir. Bu hadisələr 20 Yanvar faciəsi ilə tarixi paralellər baxımından müqayisə edilə bilər. Həmçinin 1990-cı il 20 Yanvar hadisəsi SSRİ-nin təkcə Azərbaycan ərazisində deyil, bütün sosialist düşərgəsində müstəqillik istəyən xalqlara qarşı zorakılıq siyasətinin davamı idi.

1956-cı ildə Macarıstana, 1968-ci ildə Çexoslovakiyaya qarşı SSRİ-nin hərbi müdaxiləsi də xalqın öz iradəsini ifadə etməsinə qarşı zorakılıq aktı olmuşdur. 1980-ci illərin sonunda isə müttəfiq respublikalar arasında suveren hüquqlarını tələb edən dövlətlərə qarşı eyni sərt münasibət sərgilənmişdi. Vilnüsdə, Gürcüstanda və Bakıda baş verən qanlı hadisələr Mərkəzi Sovet hakimiyyətinin ucqarlara qarşı tətbiq etdiyi zorakı siyasətin bariz nümunəsidir. Bu siyasətin 100 il ərzində mərkəzi hakimiyyətə qarşı münasibətin gözlənilənin əksinə dəyişməsinə səbəb olduğunu tarixdən bilirik. Əgər 1990-cı ilin 20 yanvarına qədər Azərbaycan xalqı mərkəzi hakimiyyətdən ədalət gözləyir, milli maraqlarına uyğun qərarların veriləcəyinə ümid bəsləyirdisə, 20 Yanvar faciəsindən sonra bu ümid tamamilə yox oldu. Xalq mərkəzi hakimiyyətə qarşı tam etimadsızlıq və inamsızlıq ruhunda idi. Bu hadisələrin nəticəsi olaraq hakimiyyətin dayağı sayılan Kommunist Partiyasına qarşı genişmiqyaslı etirazlar başladı. Azərbaycan vətəndaşları kütləvi şəkildə partiya üzvlüyündən imtina etdilər, partiya biletlərini qaytararaq partiyadan çıxdıqlarını bildirdilər. Bu, təkcə siyasi etiraz deyil, həm də xalqın azadlıq və müstəqillik arzusunun ifadəsi idi.

1990-cı ilin tarixi hadisələrinin ən mühüm məqamlarından biri də ziyalıların Azərbaycan Milli Demokratik Hərəkatının önündə olmasıdır. Azərbaycanın intellektual potensialının bu hərəkatda aparıcı qüvvə kimi çıxış etməsi, onun uğurunun əsas səbəblərindəndir. Məhz ziyalıların dəstəyi hərəkatın genişlənməsində və cəmiyyətin müxtəlif təbəqələrini birləşdirməsində mühüm rol oynadı.

Mərkəzi hakimiyyət vəziyyətin ciddiliyini nəzərə almaq məcburiyyətində idi. Lakin 1985-ci ildən 1990-cı ilə qədər davam etdirilən qərəzli və yanlış siyasət mövcud problemləri daha da dərinləşdirdi. Təcavüzkar tərəfin təşviq edilməsi, cəzalandırılmaması və Azərbaycan xalqının iradəsinin nəzərə alınmaması mərkəzin böyük səhvlərindən biri idi. Bu yanlış yanaşma Cənubi Qafqazın ərazi və əhali baxımından ən böyük ölkəsi olan Azərbaycanın milli maraqlarına qarşı laqeydlik idi. Bunun nəticəsində mərkəzi hakimiyyətin nüfuzu sarsıldı və Azərbaycan xalqının müstəqillik arzuları daha da gücləndi.

1920-ci il prosesləri ilə müqayisə edildikdə, Azərbaycanın bu coğrafiyada strateji əhəmiyyəti bir daha aydın olur. Mərkəzi hakimiyyət belə bir strateji əhəmiyyətə malik olan respublikanın əhalisinin milli maraqlarını görməzlikdən gələrək, onun müqəddəratı ilə bağlı yanlış qərarlar verdi. Necə ki, 1918-ci ildə dinc müsəlman əhali kütləvi qətliama məruz qalmışdı. O zaman Məhəmməd Əmin Rəsulzadənin dediyi kimi, "Bakını fitnə-fəsad mərkəzinə çevirmək" istəkləri aydın idi. 1918-ci ilin yaz qətliamlarından sonra Azərbaycan Milli Hərəkatının istiqlaliyyət arzuları daha da qüvvətləndi. 1990-cı ilin 20 yanvarından sonra da bu tarixi proseslər təkrarlanırdı. Əgər əvvəllər mərkəzi hakimiyyətə ümid bəsləyən qüvvələr var idisə, 20 Yanvar faciəsi bu ümidlərin tamamilə yox olmasına səbəb oldu. Azərbaycan Milli Demokratik Hərəkatı artıq açıq şəkildə Azərbaycanın suverenliyi və dövlət müstəqilliyinin bərpası uğrunda tələblərlə çıxış edirdi. Hərəkat yerli hakimiyyəti də bu yöndə müvafiq qərarlar qəbul etməyə məcbur etdi. Bu, tarixi bir zərurət idi. Nəticədə, 28 may tarixinin Azərbaycanın dövlət müstəqilliyi günü kimi qeyd olunması və digər milli maraqlara xidmət edən qərarların verilməsi məhz 1990-cı ilin 20 Yanvar faciəsindən sonra qətiləşən addımlar oldu. Bu faciə xalqın iradəsini möhkəmləndirdi və müstəqillik yolunda dönüş nöqtəsi rolunu oynadı.

44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra belə Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyət tərəfindən tam birmənalı şəkildə qəbul olunmadığını müşahidə edirik. Lakin tarixin müəyyən bir məqamında, xüsusilə müasir geosiyasi şəraitdə və Rusiya-Ukrayna müharibəsi kontekstində 20 Yanvar 1990-cı il hadisələrinə yeni baxış bucağından yanaşmaq zərurəti ortaya çıxır. Bu hadisəni törədənlərin tarixi ədalət qarşısında cavab verəcəklərinə dair inam qətidir.

20 Yanvar faciəsini törədən mərkəzi hakimiyyət məmurlarının milli maraqlar baxımından ifşa olunması və bu hadisənin geniş miqyasda təbliği uzun illər boyu yetərli dərəcədə həyata keçirilməmişdi.

Bu gün Azərbaycan xalqı həm tarixi həqiqətlərin üzə çıxarılması, həm də ədalətin bərqərar olması istiqamətində qətiyyətli addımlar atır. Azərbaycan, beynəlxalq ictimaiyyətə bu həqiqətləri çatdırmaqla, tarixin ədalətinə nail olmaq yolunda mühüm işlər görür və görməyə davam edəcəkdir.

1990-cı il 20 Yanvar hadisələri kontekstində əslində, Azərbaycan xalqının Milli Azadlıq Hərəkatı beynəlxalq ictimaiyyət tərəfindən təqdir edilməli olan şanlı səhifədir. Bu hadisə dinc və əliyalın insanların, dünyanın fövqəl dövlətlərindən biri olan SSRİ-nin güc strukturlarına qarşı ədalət tələb edən cəsarətli etirazı idi. Xalqın küçələrə çıxaraq uşağından yaşlısına qədər sülh şüarları səsləndirməsi və azadlıq çağırışları etməsi, əsl mənada, azadlıq uğrunda mübarizənin zirvəsi idi. Lakin qarşı tərəfdə vəziyyət tamamilə fərqli idi. SSRİ-nin güc strukturları, mərkəzi hakimiyyətin rəhbərliyi altında Bakıda genişmiqyaslı hərbi kontingentlə təxribatlar törətmiş, məqsədli şəkildə Azərbaycan xalqının milli azadlıq hərəkatını boğmaq və xalqı itaətə məcbur etmək üçün qəddar plan hazırlamışdılar. 20 Yanvar faciəsi məhz bu planın mərkəzi elementlərindən biri idi.

Bu qanlı hadisələrin göstəricisi olaraq, SSRİ rəhbərliyinin qərarlarının zamanında açıqlanmaması və yüzlərlə insanın həyatına son qoyulduqdan sonra bu planların ortaya çıxması, mərkəzi hakimiyyətin qərəzli, ədalətsiz və insanlıqdan uzaq siyasətini bir daha sübut etdi. Bakı küçələrində azadlıq uğrunda şəhid olan hər bir insan, sadəcə, Azərbaycanın müstəqillik hərəkatının qəhrəmanı deyil, həm də beynəlxalq insan hüquqları uğrunda mübarizənin simvoludur.

20 Yanvar xalqın iradəsinin, milli qürurunun və ədalət axtarışının önündə heç bir gücün dayana bilməyəcəyinin canlı nümunəsidir. Bu hadisə həm də dünya azadlıq mübarizəsi tarixində unudulmaz səhifədir.

1990-cı il 20 Yanvar hadisələrindən çıxarılan ən mühüm dərslərdən biri də budur ki, heç bir xalqı zorakılıq və təcavüz yolu ilə uzun müddət itaətdə saxlamaq mümkün deyil. Azərbaycan xalqı da həmin qanlı gecənin ilk dəqiqələrindən bütün qətliam və zorakılıqlara baxmayaraq, öz iradəsini və mübarizə əzmini nümayiş etdirdi. 20 Yanvar gecəsi yüzlərlə insan zorakılığın qurbanı oldu, lakin xalqımız bütün çətinliklərə rəğmən birliyini, mütəşəkkilliyini və yenilməzliyini göstərdi.

Yeni texnoloji imkanların olmadığı bir dövrdə, heç bir göstəriş və ya çağırış olmadan Bakı şəhəri də daxil olmaqla Azərbaycanın hər yerindən insanlar axın edərək imperiya hakimiyyətinə qarşı etirazlarını bir daha nümayiş etdirdilər. Xüsusilə, 20 Yanvar şəhidlərinin dəfni zamanı xalqın sərgilədiyi həmrəylik, lal sükutla, amma son dərəcə sərt bir etiraz ruhunda baş tutmuş mərasim imperiya təfəkkürlü hakimiyyətə qarşı ümumxalq hayqırtısı kimi tarixə həkk olundu. O sükutun özündə böyük bir etirazın səsi duyulurdu. Dünənə qədər yüzlərlə insanı qətlə yetirən hakimiyyətə qarşı Azərbaycan xalqı yenə də dinc və silahsız şəkildə öz mövqeyini nümayiş etdirdi. Bu, SSRİ rəhbərliyinin ordu yeridərək xalqın etiraz səsini boğmaq cəhdinin tam əks nəticə verməsinə səbəb oldu.

Bu hadisələrdə həlak olanlar Azərbaycanın dövlət müstəqilliyinin bərpası uğrunda şəhid olmuş qəhrəmanlardır. Azərbaycan parlamenti 20 Yanvar hadisələrinə siyasi qiymət verərək, şəhidlərimizin xatirəsini əbədiləşdirmişdir. Bundan əlavə, "20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi və 147 nəfərə bu statusun verilməsi, onların Azərbaycanın azadlıq və suverenliyi yolunda göstərdikləri fədakarlığın tanınmasının bariz nümunəsidir.

Şəhidlər xiyabanı Azərbaycan xalqının qan yaddaşında xüsusi yer tutur. Necə ki, 1918-ci ilin istiqlaliyyət şəhidləri həmin məkanlarda dəfn olunmuşdular, 1990-cı ilin 20 Yanvar şəhidləri də Azərbaycanın müstəqilliyi uğrunda canlarını fəda edən qəhrəmanlar kimi həmin müqəddəs məkanda dəfn edilmişdir.

20 Yanvar faciəsinə ilk siyasi qiyməti həmin dövrdə rəsmi səlahiyyətləri olmayan Heydər Əliyev vermişdir. Hadisədən dərhal sonra 21 yanvar 1990-cı ildə Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gələrək Sovet rəhbərliyinin törətdiyi bu qanlı əməliyyatı kəskin şəkildə pisləmiş və günahkarların cəzalandırılmasını tələb etmişdir. Heydər Əliyev 1991-ci ilin mart ayında Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxışı zamanı da 20 Yanvar hadisələrini "İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz" kimi qiymətləndirmişdir. Bu çıxışında o, hadisənin mahiyyətini açıq şəkildə ifadə edərək xalqımıza qarşı törədilən cinayətin məsuliyyətini Sovet rəhbərliyinin üzərinə qoymuşdur. 1994-cü il martın 29-da Azərbaycan Respublikası Ali Məclisi "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edərək 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət vermişdir. Bu qərar hadisənin mahiyyətini və səbəblərini hüquqi müstəvidə əks etdirmiş, günahkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir.

Heydər Əliyevin rəhbərliyi ilə 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Şəhidlər xiyabanında memorial kompleksin ucaldılması, 20 Yanvar Ümumxalq Hüzn Günü elan edilməsi və şəhid ailələrinin dövlət qayğısı ilə əhatə olunması bu tədbirlər sırasındadır. Bu tədbirlər xalqımızın milli yaddaşının qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Hər il 20 Yanvar hadisələrinin anılması həm şəhidlərimizin xatirəsinə ehtiramın ifadəsi, həm də bu qanlı hadisələrdə əli olan cinayətkarların öz layiqli cəzalarını alması üçün mübarizənin davam etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu faciə yalnız Azərbaycan xalqının deyil, bütün bəşəriyyətin ədalət mübarizəsi tarixində xüsusi yer tutur.

Firdovsiyyə ƏHMƏDOVA,
tarix üzrə fəlsəfə doktoru, dosent,
Əməkdar müəllim.